# Qəbələ sosial-iqtisadi inkişafın yeni mərhələsində

## Rayon icra hakimiyyətinin geniş müşavirəsi

Fevral ayının 18-də «Qafqaz» resort hotelin konfrans salonunda 2012-ci ildə rayonda sosial-iqtisadi inkişafın yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş geniş müşavirə keçirilmişdir. Müşavirəyə rayonun idarə və müəssisələrinin rəhbərləri, rayon ictimaiyyətinin nümayəndələri dəvət olunmuşlar.

Müşavirədə Azərbaycan Respublikası Milli Məclisinin üzvü, respublika Ağsaqqallar Şurasının sədri Fəttah Heydərov, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının məsul işçisi Əflatun Rufiyev iştirak etmişlər.

Müşavirə başlamazdan əvvəl rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev, qonaqlar, ictimaiyyətin nümayəndələri şəhərin mərkəzi parkına gəlmiş, burada ümummilli lider Heydər Əliyevin qəbələlilərin daimi ziyarətgahına çevrilmiş möhtəşəm abidəsi önünə tər qızıl gül qönçələri qoymuş və ulu öndərin əziz xatirəsini yad etmişlər.

«Qafqaz» resort hotelin konfrans salonunda davam edən müşavirəni giriş sözü ilə rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev açmışdır. Sonra Səbuhi Abdullayev qonaqları salamlamış və iki gün öncə Azərbaycan Ağsaqqallar Şurasının növbədənkənar VI qurultayında Qəbələ seçicilərinin yaxın dostu, Milli Məclisin deputatı Fəttah Heydərovu şuranın sədri vəzifəsinə seçilməsi münasibətilə bütün qəbələlilər adından və şəxsən öz adından təbrik etmiş, seçildiyi məsul vəzifədə ona yeni-yeni uğurlar arzulamışdır.

Gündəlikdə duran məsələ üçün söz rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayevə verilmişdir. Məruzəçi 2012-ci ildə Qəbələ rayonunun sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələr barədə geniş məruzə etmişdir **(məruzənin mətni qəzetimizin 18 fevral 2012-ci il tarixli sayında dərc edilmişdir).**







Məruzə ətrafında müzakirələr olmuşdur. Sonra müşavirə iştirakçıları qarşıda duran vəzifələr barədə müvafiq tövsiyələr qəbul etmişlər.

Müşavirə iştirakçıları tərəfindən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə müraciət qəbul olunmuşdur **(müraciət və çıxışların mətni ixtisarlarla qəzetin bu günkü sayında dərc olunur).**

Sonda rayonun sosial-iqtisadi inkişafında səmərəli fəaliyyəti ilə əlaqədar bir qrup şəxsə fəxri fərmanlar, qiymətli hədiyyələr və YAP üzvlüyünə yeni qəbul edilən gənclərə partiya vəsiqələri təqdim olunmuşdur.

**O. MƏMMƏDOV.**
**Fotolar S. Umuyevindir.**

# Çıxışlar

### Fəttah HEYDƏROV, Milli Məclisin deputatı.

**Əziz dostlar!**

**Hörmətli qəbələlilər, qonağımız Əflatun müəllim və hörmətli başçı Səbuhi Abdullayev!**

Əvvəlcə bu yüksək tribunadan sizin hamınızı ürəkdən salamlayır və hər birinizə gələcək işlərinizdə uğurlar arzulayıram. Respublikamızda mənə göstərilən etimadı, mənim haqqımda deyilən xoş sözləri siz qəbələlilərə də aid edirəm.

18 il bundan əvvəl mən sizinlə görüşərkən qeyd etmişdim ki, Qəbələnin inkişafı, böyüməsi, onun qədim tarixi söhrətinin özünə qaytarılması üçün var qüvvəmi əsirgəməyəcəyəm. Çox şükürlər olsun ki, bu illər ərzində arzularımız həyata keçməkdə davam edir. 18 il əvvəlki Qəbələni bu günkü Qəbələ ilə müqayisə etdikdə nə qədər böyük işlərin görülməsi bu salonda oturanların çoxuna yaxşı məlumdur. Qəbələnin siması başdan-başa dəyişmiş, şəhər və qəsəbələrimizdə, kəndlərimizdə köhnəlikdən əsər-əlamət belə qalmamışdır. Bunların hamısı Azərbaycan xalqının fəxri, dahi şəxsiyyət, ümummilli lider Heydər Əliyevin Azərbaycanın gözəl, firavan gələcəyi üçün başladığı islahatların, bizim üçün miras qoyub getdiyi siyasi kursun bəhrələridir. Cənab Prezidentimiz İlham Əliyev Heydər Əliyevin başladığı işi— Azərbaycan dövlətinə, dövlətçiliyinə, Azərbaycan xalqına sədaqətlə, inamla, var qüvvəsi ilə davam etdirir.

Mən burada daha bir məsələni nəzər-diqqətə çatdırmaq istərdim. Cənab Prezident hələ vaxtilə qeyd etmişdir ki, o bütün həyatını Azərbaycanın inkişafına, xalqın həyat səviyyəsinin yaxşılaşdırılmasına həsr edəcəkdir. Faktlar göstərir ki, o, bu zaman həqiqətən öz ürək sözlərini söyləmişdir. Cənab Prezident nə demişdirsə onu yerinə yetirmiş və bu gün də vədinə sadiq qalır. Azərbaycanda əldə edilən uğurlar göz qabağındadır, nailiyyətlər rəqəmlərdə, göstəricilərdə əks olunur. Mən bunlar haqqında danışmaq fikrində deyiləm. Məruzə və çıxışlarda bu barədə çoxlu faktlar söylənildi. Ölkə bütövlükdə dünyada ən inkişaf edən ölkələr sırasına daxil olmuşdur. Əvvəllər sərhədlərindən kənarda tanınmayan Azərbaycan indi dünyanın hər yerində tanınır, onun nüfuzu ən inkişaf etmiş ölkələr arasında ildən-ilə artır, həyata keçirilən haqq iş dəstəklənir.

Lakin onu da qeyd edək ki, ölkənin bu qələbələrini gözü götürməyən daxili və xarici qüvvələr də vardır. Ancaq xalq yaxşı bilir ki, dövlətin başında kim durub, müstəqilliyimizin lap əvvəllərindən fərqli olaraq bizlərə kim uğur gətirə bilər? Əlbəttə ki, xalq özü yaxşını pisdən ayırmağı, ağı-qaradan seçməyi çox gözəl bacarır və anlayır.

**(Ardı 3-cü səhifədə).**